**Nuranə Məcid qızı NURİYEVA**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
Azərbaycan Dillər Universitetinin
Xarici ölkələr ədəbiyyatı kafedrası
E-mail: nurananuri@mail.ru

# EDQAR ALLAN PO ORİYENTALİZMİNİN ESTETİKASI

**Xülasə**

Məqalədə ABŞ ədəbiyyatının görkəmli nümayəndəsi Edqar Allan Ponun yaradıcılığında oriyentalizm təhlil olunur. Burada onun əsasən "Evrika" və "Ligeya" əsərlərində Şərq mövzusuna müraciətinin səbəbləri və qaynaqları ilə yanaşı ideya-estetik əhatəsi, bədii-üslubi keyfiyyətləri də araşdırılır. Edqar Allan Ponun oriyentalizmini araşdırarkən onun Şərqə olan marağının səbəbləri kontekstində Şərq və Qərb qarşıdurmasının səbəbləri də diqqət önündə saxlanılmışdır. Edqar Allan Po "Evrika" əsərində Qurandan kosmologiya baxımından təsirlənmişdir.

"Evrika" Edqar Allan Ponun bəşəriyyətin təbiətini əks etdirən intuitiv konsepsiyasının məhsuludur. Ona qədər heç kim bu haqda fikir söyləməmiş və "Evrika" əsəri ilə müqayisə ediləcək elmi tədqiqat işi ortaya qoymamışdır. Edqar Allan Po çoxşaxəli bir yaradıcılıq yolu keçmiş və yalnız ədəbiyyatda deyil, "Evrika" adlı möhtəşəm tarktatı ilə elm sahəsində də yenilik etmişdir.

Edqar Allan Ponun "Ligeya" hekayəsində sufizmə meyllilik mövcuddur. Edqar Allan Po bu hekayəsində qadın obrazı vasitəsilə yıxılmış ierarxiyaların yerinə toplu çevrilmə mexanizmlərini qoyur. Bu dəyişim mexanizmasını Edqar Allan Po qadın obrazları ilə ifadə edir, yəni metaforlaşdırır.

**Açar sözlər:** *Şərq, Oriyentalizm, "Evrika", E.A.Po, "Ligeya"*

**OUT:** 82
**DOİ:** 10/54414/WASJ3620

## Giriş

Amerika Birləşmiş Ştatları ədəbiyyatının görkəmli nümayəndəsi yazıçı, şair və tənqidçi Edqar Allan Po (1809–1849) sağlığında digər yazıçılarla müqayisədə haqqı olan münasibəti görməmişdi. Yaradıcılığının ilk mərhələsindən etibarən Şərq dünyası və mədəniyyətini tərənnüm edən Edqar Allan Po uğur qazanmasa da, sonrakı dövr yaradıcılığında şöhrəti yaxalamış, lakin maddi baxımdan ömrünün sonunadək səfalət içində yaşamışdır.

Edqar Allan Ponun yaradıcılığının ümumi səciyyəsi və aparıcı istiqamətləri, xüsusən də onun Şərq mövzusunda yazdığı əsərlərinin məzmunu, ideya-estetik əhatəsi, bədii-üslubi keyfiyyətləri diqqəti çəkir. Qərb ədəbiyyatı barədə bilikləri ilə yanaşı Edqar Allan Ponun Şərq ədəbiyyatı, tarixi, coğrafiyası və dini etiqadı ilə bağlı bilikləri də çox dərin idi. Onun çoxcəhətli yaradıcılığının bir qolu da məhz özündə Şərq obraz və motivlərini ehtiva edən "İsrafil", "Teymurləng", "Əl Əraf", "Şəhrizadın min ikinci gecəsi", "Ligeya" və "Evrika" əsərləridir.

Edqar Allan Po bu gün də diqqət mərkəzində olan və sevilə-sevilə oxunan yazıçıdır. Onun qeyd etdiyimiz əsərləri ilə yanaşı bir qisim şeirləri də vardır ki, özündə təsəvvüf elementlərini ehtiva edir. Edqar Allan Po yuxu ilə reallıq arasında qurduğu dünyaların qorxunc cazibəsini bütün əsərlərində sənətkarlıqla təsvir etmiş, yox olmanın bütün sarsıntılarını müdhiş dühası və fantastikası ilə oxucusuna təqdim etmişdir. Onun istər nəsr əsərlərində, istərsə də poeziyasında birbaşa görünən məzmundan kənar məna qatları da gizlidir. Bu səbəbdən də, onları dərk edə bilmək üçün məna qatlarının dərinliyinə enmək, istifadə etdiyi adların miflərdəki, müqəddəs kitablardakı və müxtəlif elm sahələrindəki işlənmə yerinə görə mənasını açmaq lazımdır. Edqar Allan Ponun dahiliyi, əsərlərinin orijinallığı və zamansızlığı da məhz buradan qaynaqlanır.

Əsərləri ilə ədəbiyyata bir çox yeniliklər gətirən Edqar Allan Po, hətta ədəbiyyatdan başqa sənət sahələrinə də maraq göstərmiş, detektiv, elmi fantastika, və qotik ədəbiyyatın inkişafı və yenidən formalaşmasında çox mühüm bir addım atmışdır. O, "Gördüklərimiz və göründüyümüz" "Yuxu içində bir yuxu" şeirləri ilə yaşadığımız dünyanın faniliyini, aldadıcı, keçici olduğunu oxucuya çatırmağa çalışır və bununlada tənəzzülə doğru gedən bəşəri həyatın bir ovuc qum kimi barmaqlarımız arasından axıb getdiyini ("Gördüklərimiz və göründüyümüz") söyləyir. Qum dənəsinin bir zərrəsini tutub saxlaya bilməyən insan axıb gedən ömrünün bir anını belə geri qaytara bilməz və bu mənada insana anı yaşamaq, gördüklərimizin bir yuxu olduğunu və bu dünyada bir iz buraxaraq getməyi tövsiyə edir.

**Əsas hissə**

Edqar Allan Ponun oriyentalizmini araşdırarkən mütləq onun Şərqə olan marağının səbəbləri kontekstində Şərq və Qərb qarşıdurmasını nəzərdən keşirməliyik. Belə ki, onun əsərlərində Şərq obraz və motivlərinə ağırlıq verməsi Şərq İntibahının Qərb İntibahı ilə müqayisədə daha yüksək dəyərlər yaratdığı fikrini təsdiqləyir. Belə olan halda professor Q. Quliyevin "Qərb-Şərq münasibətləri haqqında" məqaləsində yazdığı İslam və xristian İntibahının insanlığa bəxş etdiyi mənfi və müsbət dəyərləri göz önündə saxlamalıyıq. Professor Q. Quliyev yazır: "Biz belə bir arqumentdən çıxış edərdik ki, xristian İntibahı insanı Allahın dünyanın mərkəzindən onun periferiyasına sıxışdırılması hesabına ucaltmağa çalışmışdır və son nəticə etibarıilə insanın son hədd özgələşməsinə nail olmuşdur. Müsəlman İntibahı isə insanı Allaha yaxınlaşdırmaq, onu ilahi nura bürümək məqsədini güdmüşdür və bununla da çağdaş insanın total özgələşmədən xilas olmasının əsas istiqamətini müəyyənləşdirmişdir" [2, s. 277].

Qeyd olunan fikirləri əsas götürsək Edqar Allan Ponun oriyentalizmi başa düşüləndir. Həyatı boyu cəmiyyət tərəfindən sıxışdırılan və yalqızlaşan yzıçı təbii ki, öz romantik ruhuna daha yaxın olan Allaha yaxınlaşmaq, onun ilahi nuruna bürünmək üçün Şərqi Qərbə gətirməyə çalışmış, xristian teologiyasının Allahı ölümlü insanın surətindəki təqdiminə bir növü etiraz etmişdir. Bəlkə elə bu səbəbdəndir ki, o, daha çox astronomiya və kosmologiya elminə meyl etmiş, öz metafizik dünyagörüşünü bəzən aşkar, bəzən isə gizli şəkildə əsərlərində kodlaşdırmışdır.

"Evrika" (*Eureka*, 1848) amerikalı yazıçı Edqar Allan Ponun ən uzun elmi fantastik əsəri hesab olunur. Yazıçı özü bunu "Poetik nəsr" adlandırır, baxmayaraq ki, əsərin digər yarımbaşlığı "Maddi və mənəvi kainat haqqında esse"dir.

"Əl-Əraf" poemasında olduğu kimi, Edqar Allan Po "Evrika" əsərində də Qurandan kosmologiya baxımından təsirlənmişdir. "Evrika" Edqar Allan Ponun bəşəriyyətin təbiətini əks etdirən intuitiv konsepsiyasının məhsuludur. Ona qədər heç kim bu haqda fikir söyləməmiş və "Evrika" əsəri ilə müqayisə ediləcək elmi tədqiqat işi ortaya qoymamışdır. Əsərdə yazıçı elmi açıqlamaları ilə yanaşı insanın Allahla münasibəti məsələsini də təhlil və təqdim edir. O, "Evrika" əsərini alman təbiətşünası və tədqiqatçısı Aleksandr fon Humboldta (1769–1859) həsr etmişdir [9].

Baxmayaraq ki, "Evrika" bədii əsər hesab edilir, lakin Edqar Allan Ponun bəzi ideyaları XX əsrdə kəşf olunan elmi nəzəriyyələri qabaqlayır. Əsərin elmi təhlili göstərir ki, onun müasir kosmoqologiya ilə uyğunluqları vardır [3]. Edqar Allan Po öz əsərini "poema" adlandırır, ancaq ədəbi tənqid "Evrika"nı yazıçının fantastik hekayələrilə müqayisə edir və onu fantastik əsər kimi qəbul edirlər. Belə ki, Edqar Allan Ponun həqiqəti açmaq üçün istifadə etdiyi üsullar onun detektiv əsərlərində işlətdiyi "nisbətləndirmə" ənənəsinə uyğun gəlir. "Evrika" əsərinin mənşəyi yazıçının 3 fevral 1848-ci ildə Nyu Yorkdakı Cəmiyyət Kitabxanasında "Kainatın Kosmoqrafiyası haqqında" adlı mühazirəsindən qaynaqlanır [10].

Edqar Allan Ponun "Evrika" ilə bağlı mühazirəsi də ədəbi tənqid tərəfindən müsbət qarşılanmamış, elm adamları və ilahiyyatçıların hiddətinə səbəb olmuşdu. Onun dostu Evert A. Duykink qardaşına bu mühazirənin onu cana yığdığını yazır və bildirir ki, əsər "elmi ifadələrin gülünç bəsitliyi ilə dolu – böyük bir cəfəngiyyatdır" [3, s. 82].

Baxmayaraq ki, oxucular "Evrika"nın həddən artıq uzun və inandırıcı olmadığını söyləyirdilər, lakin Edqar Allan Po özü əsərinə yüksək dəyər verir və bu əsərin gələcəkdə onu ölümsüzləşdirəcəyi fikrinə inanırdı. Əsərin ön sözündə o, yazırdı: "İstəyirəm ki, bu əsər bir şeir kimi yalnız mən öləndən sonra dəyərləndirilsin". Oxucular tərəfindən də bir mənalı qarşılanmayan əsər haqqında müxtəlif fikirlər vardır. Öz dövründə onun əsərini "hiperbolik cəfəngiyat", fantastika, elmdən uzaq, dinsiz və səviyyəsiz adlandırsalar da, Edqar Allan Po bunları sükutla qarşılamışdı.

"Evrika" nəşr olunduqdan sonra Edqar Allan Po xalası Mariya Klemmə əsər haqqındakı düşüncələrini yazır: "Evrika"nı yazdığımdan bəri yaşamaq arzum qalmayıb. Bundan artığını edə bilmədim" [4, s. 113]. Buna baxmayaraq o, bildirir ki, müasir nəslin onu başa düşməməsi labüddür və yəqin ki, iki min il sonra gələcək nəsillər onu anlaycaqlar. "Evrika" əsəri nəşr edildikdən sonra *Literary Review* jurnalında ciddi tənqidi məqalə çap olunur. Məqalə anonim müəllif tərəfindən yazılmışdı. Edqar Allan Po bunun gənc ilahiyyatçı Con Henri Hopkins tərəfindən yazıldığını düşünürdü. Belə ki, adı keçən əsəri C.H. Hopkins əvvəllərdə tənqid etmiş onun müəlifini isə panteist və "lənətə gəlmiş dinsiz" adlandırmışdı [9, s. 338].

Fransız yazıçısı Pol Valeri əsəri riyazi əsaslara söykənən mücərrəd şeir adlandırmış, Albert Eynşteyn isə 1934-cü ildə yazdığı bir məktubda "Evrika"nı "sərbəst düşüncənin gözəl nailiyyəti" kimi dəyərləndirmişdi [5, s. 216].

Edqar Allan Po hələ gənclik illərindən elmə gedən yolda əzmlə addımlayır, hər oxuduğunu dəyərləndirir və nəticə çıxarırdı. O, demək olar ki, bütün elm sahələrinə maraq duymuş, lakin astronomiya elmi onun daha çox diqqətini çəkmişdi. "Əl-Əraf" poemasında olduğu kimi "Evrika" əsərində də, Edgar Allan Ponun astronomiya elminə böyük marağı olduğunun şahidi oluruq. O, astronomiya ilə bağlı biliklərini "Evrika" (*Eureka*) əsərində davam və inkişaf etdirmişdir. Edgar Allan Ponun bu günə qədər diqqətdən kənarda qalmış bu əsəri, astronomiya elmi ilə birbaşa əlaqəsi olan poetik nəsr əsəridir. Yazıçının yaradıcılığının son dönəmində qələmə alınan "Evrika" əslində Quranın 21-ci surəsi Əl-Ənbiyanın 30 və 31-ci ayələri əsasında qələmə alınmışdır. Adı keçən surənin 30-cu ayəsində oxuyuruq: "Məgər kafir olanlar göylə yer bitişik ikən Bizim onları ayırdığımızı, hər bir canlını sudan yaratdığımızı bilmirlərmi?! Yenə də iman gətirməzlər? (Göylər ilk yaradılışda bir-birinə bitişik olduğu halda onların arası hava ilə açılıb yeddi təbəqəyə ayrılmış, yer də bir təbəqə ikən sonra yeddi təbəqəyə bölünmüşdür. Bu Allahın qüdrət və əzəmətini sübut edən ən tutarlı dəlillərdəndir." Bunun davamı olaraq 31-ci ayədə deyilir: "Yer onları silkələməsin, atıb-tutmasın deyə orada möhkəm (durmuş) dağlar yaratdıq; onlar (istədikləri yerə) rahat gedib çata bilsinlər deyə, orada geniş yollar əmələ gətirdik" [1, s. 323].

Qurandakı apokaliptik obrazlar və esxotoloji istinadlardan ilhamlanan Edqar Allan Po hələ "Əl-Əraf" əsərini yazarkən bəşəri dünyanı boş bir dünya kimi təsvir edirdi. O, "Əl-Əraf"da yer üzünün fəlakətli bir sonu olacağını söyləyir: "*Quiet we call/'Silence' – which is the merest word of all*" – "Bizimki bir söz dünyası: Səssiz ol deyirik / "Səssizlik", bu ən bəsit sözdür" [6, s. 90].

Edqar Allan Po "Evrika" adlı fəlsəfi traktatında astronomiya ilə bağlı düşüncələrini, biliklərini öz ədəbi nəzəriyyəsi, teologiyası və fəlsəfəsi ilə birləşdirərək maraqlı bir əsər ortaya qoymuşdur. Yazıçı, əsərində öz səma nəzəriyyəsini yaradaraq inkişaf etdirir, səma ilə kainat nəzəriyyələri arasında əlaqə axtarır və əmin bir şəkildə öz fikirlərini əsaslandırmağa çalışır. Planetlərin Günəşdən ayrılması, cazibə qüvvəsi, dağınıq atomun bütövə qovuşması və bütün bunların ilahi aləmdə necə izah oluna biləcəyi Edqar Allan Ponun əsərində yer alan əsas məsələlərdir.

Qeyd etdiyimiz kimi Edqar Allan Po "Evrika"nı özünün şah əsəri hesab etsə də, bu öz dövründə bir o qədər də təqdir olunmamışdı. Bu səbəbdən də əsər daha çox fantastik və ya uydurma əsər olaraq qəbul edilmişdi. "Evrika" əsərinin heç bir elmi əsası olmadığını söyləyən ədəbi tənqidə isə yazıçının cavabı belə olmuşdur ki, o söylədiklərinin doğruluğunu sübut etməyə çalışmır, o, sadəcə olaraq bunun doğru ola biləcəyi ilə bağlı fərziyyələr irəli sürür. Lakin buna baxmayaraq müasir ədəbi tənqid bu

gün də "Evrika" əsərini lazımınca dəyərləndirməmiş və XX yüzilliyin sonunadək onu ciddi əsər kimi qəbul etməmişdir. Lakin qeyd edək ki, "Evrika" əsəri XX yüzillikdə kəşf olunan "*Big Bang*", yəni "Böyük partlayış" nəzəriyyəsi, bir sıra kainatla bağlı nəzəriyyələr və Olbers paradoksunun həlli də daxil olmaqla doqquz əsas nəzəriyyədən əvvəl söylənmiş elmi-nəzəri fikirləri ehtiva edir.

Yohannes Keplerdən tutmuş Edmund Halleyə qədər bir çox astronom və kosmoloqu çaşdıran suallardan biri də Kainatın niyə işıqla dolu deyil, qaranlıq bir yer olduğu sualı olmuşdur. Belə ki, əgər Kainat sonsuz böyüklükdədirsə, onda orada sonsuz sayda da ulduz olmalıdır. Belə olan halda baxdığımız hər yerdə bir ulduz görməliyik və həmin ulduzlardan yayılan işıq da sonda bizə çatmalıdır. Lakin bu zaman Kainatın işıqla dolu olması ehtimal olunduğu halda o qaranlıqdır. Bunun səbəbi alimlər üçün aydın deyil. Bu paradoks ilk dəfə 1823-cü ildə alman astronomu Henrix Vilhelm Olbers tərəfindən irəli sürülmüşdür. Bu səbəbdən də Olbers paradoksu adı almışdır. Lakin Edqar Allan Poya görə izlənilə bilən kainatın ölçüsü bu paradoksu həll edə bilər. Çünki Kainatın yaşı sonsuz deyil, amma işığın sürəti daimidir. Ona görə də Yerdən yalnız bir neçə ulduzu görmək mümkündür. Bu görünən sahədə ulduzların sayı da sonsuz olmadığı üçün Yerin istənilən nöqtəsindən bir ulduza çatma ehtimalı kifayət qədər aşağıdır. Edqar Allan Ponun fikirləri ölümündən səksən il sonra öz təsdiqini tapmışdır.

İlk baxışda "Evrika" əsəri qəribə, bir az fantastik, bir az da cəfəngiyyat kimi səslənir. Lakin bu kosmologiya haqqında traktat maddi dünyanın yaranması, genişlənməsi və tənəzzülü haqqında bir əsərdir. Əsər bəzən mənsur şeir, bəzən bir kosmik tədqiqat, bəzən də tənqidi satirik şəkil alır. Buna baxmayaraq Edqar Allan Poya görə kainat, formal olaraq elmi bir şablon deyildir. Bu, mücərrəd olsa da, haqqında dəqiq, doğru fikirləri olan ciddi bir araşdırmanın mövzusudur. Edqar Allan Po, "Evrika" əsərində, bir sıra kəşflərin yanı sıra, kainatın sonu olduğunu, atomların tək bir "hissəcikdən" "şüalanma" vasitəsilə meydana gəldiyini söyləyir. O, əsərində Kainatın gələcəyi ilə bağlı fikir irəli sürür və Nyutonun nəzəriyyəsi ilə barışmır. Yazıçıya görə Nyutonun cazibə qüvvəsi adlandırdığı qüvvə, elə cazibədən başqa bir şey deyildir. Amerikalı yazıçı Merilin Robinson və digər yazıçıların da qeyd etdiyi kimi, Edqar Alan Ponun iddiaları, XX əsr astrofizikasında baş verən bəzi hadisələri qorxunc şəkildə proqnozlaşdırırdı [8, s. 4].

İngilis astronomu və kosmoloqu Edvard Robert Harrison (1919-2007) 1987-ci ildə yazdığı "Gecə qaranlığı: Kainatın tapmacası" (*Darkness at Night: A Riddle of the Universe*) kitabında Edqar Allan Ponun Olbersin paradoksunu dəqiq və sadə izahından heyrətə gəldiyini yazır: "Şair və ya ən yaxşı halda həvəskar alim olan biri 140 il bundan əvvəl necə düzgün izahı verə bilərdi, halbuki bizim kolleclərdə hələ də yanlışı öyrədirlər?" [12, s.125].

Edqar Allan Poya görə "Evrika"da yer alan bütün fantastik öngörmələr, istər düşünülmüş şəkildə, istərsə də qeyri-iradi söylənsin, hər biri özündə mübaliğəsiz gerçəkləri ehtiva edirdi. Ümumiyyətlə, əsərdə təbii dünyanın quruluşu haqqında iddialı fikirlərin olduğuna rast gəlirik. Edqar Allan Ponun təhkiyəsindən də aydın olur ki, ona görə poetik düşüncə özündə təbii dünyanın hərəkətliliyini müşahidə və təqlid etməyi ("Bütün hərəkətlərin mənbəyi düşüncədir", "Sözlərin Gücü"ndə iki sirli danışandan biri təkid edir) ehtiva edir [7]. Qeyd etdiyimiz kimi o, "Evrika" əsərini Quranın 21-ci surəsi Əl-Ənbiyanın əsasında qələmə almış, lakin bunu astronomiya ilə bağlı bilikləri və fəlsəfə ilə birləşdirərək öz tezisini ortaya qoymuşdur. Əgər nəzərə alsaq ki, XIX yüzilliyin başlanğıcında Amerika Birləşmiş Ştatlarında İslamın müqəddəs kitabı Qurana münasibət birmənalı deyildi, o zaman Edqar Allan Ponun yaradıcılığındakı Qurana istinadların ədəbi tənqid tərəfindən təqdir olunmaması da labüddür. Elə bu səbəbdəndir ki, Edqar Allan Po yaradıcılığının öz dövründə doğru anlaşılmayacağını bilirdi və bunun üçün uzun bir zaman kəsiyinə ehtiyac olduğuna da inanırdı.

Yazıçının "Evrika" əsərində verdiyi məlumatlar, misal gətirdiyi filosoflar daha çox diqqət çəkir. O, yunan yazıçısı Ptolomey Hefestion, "həndəsənin atası" adlandırılan Evklid, transendental idealizm doktrinasını irəli sürən Kant, ingilis filosofu Bekon və bir sıra

tanınmış elm adamlarından misallar gətirir, müqayisələr aparır və öz tezislərini iddialı şəkildə ortaya qoyur. Onu da qeyd edək ki, bu əsəri tam mənası ilə dərk etmək üçün oxucunun özünün bir sıra elm sahələrilə bağlı məumatlı olması lazımdır.

Əsərdə diqqətimizi çəkən və daha çox maraq doğuran məqam filosof Aristotellə bağlıdır. Aristoteli bir türk filosofu kimi təqdim edən Edqar Allan Po onun adının Aries, soyadının Tottl olduğunu yazır və qeyd edir ki, zamanla "ən yaxşı adlar iki-üç min ildən sonra lüzumsuz şəkildə dəyişdirilir" [7, s.11]. Edqar Allan Poya görə fəlsəfə elminin əsasını türklər qoymuşlar, çünki ellinistik mədəniyyət türk – yunan mədəniyyətinin əsasında yaranmışdır.

Yazıçı əsərə yazdığı giriş hissəsində "Fizika, Metafizika və Riyaziyyat - Maddi və Mənəvi Kainat: mahiyyəti, mənşəyi, yaradılması, indiki vəziyyəti və taleyi" haqqında danışmağı planlaşdırdığını söyləyir və Aristotelə müraciət edərkən digər filosofların fikirlərinə də əsaslanır. O, müqayisələr apararaq belə bir qənaətə gəlir ki, ruh heç vaxt ölmür, o əzəli və əbədi olaraq vardır və vahid mərkəzdən qoparaq həmin mərkəzə qayıtmağa meyllidir. Bu mərkəzin Tanrı olduğu arqumentindən çıxış edərək, Edqar Allan Po öz yaradıcılığında bəlkə də ilk dəfə olaraq ən maraqlı elmi əsərini ortaya qoymuşdur. Belə ki, məhz bu əsərdən aydın olur ki, o, öldüyü halda təkrarən geri dönən ruhlardan bəhs etdiyi hekayələrində əsas olaraq Aristotel, İbn Rüşd və digər Şərq duşunürlərinin fikirlərinə əsaslanmışdır. Əslində Edqar Allan Po reinkarnasiyaya inanırdı və bu onun istər poeziyasında, istərsə də nəsr əsərlərində vurğulanan əsas məsələlərdən biridir.

Elm mövzusu Edqar Allan Ponun "Şəhrizadın 1002-ci gecəsi" adlı hekayəsində də davam və inkişaf etdirilir. Onun "Şəhrizadın min ikinci gecesi" adlı hekayəsi sadəcə qotik ədəbiyyatın deyil bütün modern ədəbiyyatın özəyini təşkil edən inanılmaz sayda elmi məlumatlarla zəngin hekayətlərdən ibarətdir. Hekayədə yer alan doqquz hekayətin hər birinin ayrılıqda maraqlı bir elmi məlumat qaynağı olması diqqət çəkən əsas amildir. "Şəhrizadın 1002 Gecəsi" hekayəsində də Edqar Allan Po elmə olan marağını poetik dillə təqdim edir. Onun qəhrəmanı Harun ər-Rəşid Şəhriazadın hava şarları, teleqraf və digər elmi kəşflər haqqındakı hekayələrini maraqla dinləyir. Lakin eşitdikləri qarşısında çaşıb qalır və bu iddiaların mümkünsüzlüyünü ifadə edərək ona ölüm hökmü kəsir. Maraqlıdır ki, əsasən ölmüş qadını mədh edən Edqar Allan Po bu əsərində Şəhrizadı canlı olaraq təqdim edir. Əsərdə Şəhrizad yazıçının əvvəlki qadın obrazlarından fərqli olaraq öz düşüncələri, elmi, dünyaya fərqli baxışı olan ağıllı bir qadın kimi təsvir olunur. Lakin sonda Şəhrizadın ölümə məhkum edilməsi metaforik olaraq ierarxiyaları yıxan yeni qadın obrazı ilə qarşımıza çıxarır. Edqar Allan Po ümumiyyətlə yaratdığı qadın obrazları vasitəsilə də yıxılmış ierarxiyaların yerinə toplu çevrilmə mexanizmlərini qoyur.

Edqar Allan Ponun özündə Şərq motivlərini əks etdirən digər bir əsəri "Ligeya"dır. Yazıçının "özünün ən yaxşı hekayəsi" adlandırdığı "Ligeya" (1838) onun yaradıcılıq üslubunu təyin edən, bədii cəhətdən ən təsirli və səciyyəvi əsəridir. Bu hekayədə də ana mövzu, onun bütün nəsr və poetik əsərlərinin əsasında dayanan sevgi və ölüm anlayışı davam və inkişaf etdirilmişdir. Özlüyündə ən güclü emosional yükə malik olan sevgi və ölüm anlayışı Edqar Allan Po tərəfindən davamlı olaraq romantik şəkildə təqdim olunur. Bu anlayışlar onun əsərlərində bioloji və ya dünyəvi deyil, estetik, yüksək mənəvi hadisələrə çevrilmiş kateqoriyalar kimi çıxış edir. Onlar, bir qayda olaraq Edqar Allan Ponun poeziyası ("Quzğun", "Annabel Li", "Ulyalum") və nəsri ("Morella", "Ligeya", "Şəhrizadın 1002–ci gecəsi") üçün səciyyəvi olan mərhum sevgilinin obrazı vasitəsilə çatdırılır.

Edqar Allan Ponun "Şəhrizadın 1002–ci gecəsi" adlı hekayəsilə yanaşı "Ligeya", "Berenike", "Aşerlər evinin süqutu" hekayələri, 1840-cı ildə "Arabesk və qrotesk nağıllar" (*Tales of the Grotesque and Arabesque*", 1840) kitabına daxil edilmişdir. Arabesklər İslam sənətinin əsas elementi olub İslamın meydana çıxmasından əvvəl gələn bir ənənəni inkişaf etdirmişlər.

Hekayələrin təsvirində arabesk və qrotesk sifətləri qeyri-müəyyən olsa da, "Berenike", "Aşerlər evinin süqutu", "Ligeya" kimi arabesk

olaraq təsnif edilən hekayələrin olması da maraqlıdır. Arabesk hekayələrində baş qəhrəmanlar Edqar Allan Ponun təxəyyül məhsulu olan, istər saç rəngi, istərsə də, başqa bir dünyaya aid olan, zaman və məkanla əlaqəsi olmayan və bədən dəyişən varlıqlardır. Lakin onun qrotesk hekayələrindəki qəhrəmanlarının bir qismi satirik şəkildə qələmə aldığı real insanlardır, bəziləri isə onunla eyni vaxtda yaşayan adamlara istehzalı yanaşmadır. Müəllif bu hekayələrdə arabesk kimi təsnif etdiyi hekayələrdən fərqli olaraq cərəyan etdiyi yeri bilinən hadisələri satirikləşdirir. Bunlara onun qızıla hücum adı altında istehzalı şəkildə qələmə aldığı “Fon Kempeln və onun ixtirası” və heroqlifi deşifrə edərək Misirə duyduğu hədsiz marağını əks etdirən “Mumiya ilə kiçik mübahisə” adlı hekayələri daxildir. Bu hekayələrdə Edqar Allan Po yaradıcılığının publisistik tərəfinin olduğunu da görmək olar.

Edqar Allan Ponun məşhur türk fatehi Əmir Teymurla bağlı yazdığı “Teymurləng” şeirində Qurana istinadlar olduğu məlumdur. Şair burada Qurandakı İblisi və cənnətdəki hurini xatırlayır. “Teymurləng” şeirindən sonra o, Ligeya əsərində də “huri” kəliməsini işlədir. Hekayədə Edqar Allan Po, təhkiyəçinin sevimlisi olan gözəl ölü qadının zahiri görünüşünü hərtərəfli şəkildə təsvir edir. O, Ligeyanın çöhrəsinin fiziki xüsusiyyətlərini müəyyən etməyə çalışır. Ligeiyanın çöhrəsini qeyri-adi sözlərlə “qüsursuz”, “qəribə” və “zərif” kimi təsvir edir. Daha sonra o, Ligeyanın “öz irqimizin adi gözlərindən... Nurcahad qəbiləsinin ceyran gözlərindən də geniş olan çox böyük” gözlərini təsvir edir. Tədqiqatçı T.O. Mabbot qeyd edir ki, Edqar Allan Po əslində dolayısı ilə Qurani-Kərimdəki Hurinin təsvirinə geniş yer verir və sonra birbaşa ona istinad edərək deyir ki, “onun gözəlliyi... türkün əfsanəvi Hurisinin gözəlliyidir”. Edqar Allan Po, Ligeyadakı “huri”lərin gözlərinin böyüklüyünü “iri”, “daha iri” və “ən dolu” olaraq vurğulayır [6, 313]. Eyni bənzər fikrə Corc Seylin Qurana verdiyi şərhlərində də rast gəlirik. Corc Seyl də əl-Vaqiə surəsinin 23-cü ayəsinə əsaslanır. O, da belə qənaətə gəlir ki, Ligeyanın iri gözlərinin xüsusiyyəti “böyük qara gözləri olan” Qurani-Kərim “hurilərinin” gözlərinin böyüklüyünə paraleldir [10].

Edqar Allan Po Quranda təsvir olunan hurilərin təsvirinə münasibətdə daha da irəli gedir. O, ölmüş sevgilisinin bənizinin ağlığı ilə müqayisə etmək üçün Qurandakı “huri”nin ağlığına işarə edir. Quranda hurilər məcazi olaraq inciyə bənzədildiyi üçün həddən artıq ağbənizli bakirə qızlar kimi təsvir edilir: “(Onlar üçün orada) iri (ahu) gözlü, qəşəng hurilər də vardır. O hurilər (rəng və gözəllikcə) sanki sədəf içində gizlənmiş (qorunub saxlanmış) incidirlər (Əl-Vaqiə 56/22-23) [1, ]. Lakin Edqar Allan Po Qurandakı təsviri olduğu kimi işlətmir və Ligeyanın daha da ağbənizli olmasını göstərmək üçün inci bənzətməsi əvəzinə, fil sümüyü bənzətməsindən istifadə edir və onu “ən təmiz fil sümüyü ilə rəqabət edən dəri” kimi dəyərləndirir [9].

Tədqiqatçı alim N.İgəndərova “Amerikan novellası və Şərq” adlı monoqrafiyasında Edqar Allan Ponun “Ligeya” hekayəsini sırf sufizm baxımından təhlil edir. “Sufi etikası kontekstində “Ligeya” hekayəsində həqiqət axtarışı” adlı hissədə müəllif daha çox sufizmdəki ölüm anlayışı üzərində dayanır. Belə ki, geri dönən ruh bir başqa bədəndə təcəlli edir. Burada müəllif iki versiya üzərində dayanır ki, bunlardan birincisi Edqar Allan Ponun özünün sevdiyi qadınların (anası, ogey anası və ya sevgilisi olsun) geri dönməsini istədiyi, şüur altında gizlədiyi bir duyğudur və ya ikincisi, əsərdə təsvir olunan Ligeyanın opiumun təsirilə trans halında olması və sonradan ayılaraq bir başqasıymış kimi geri dönməsidir [13]. Təbii ki, Edqar Allan Ponun yaradıcılığında sufizmə meyllilik və təsəvvüf elementləri mövcuddur. Bu baxımdan hekayənin bu şəkildə təhlili də qəbul olunandır. Qeyd edək ki, Edqar Allan Po reinkarnasiyaya inanırdı və ona görə ruh ölümsüzdür və bir gün başqa bədəndə geri dönməsi də mümkündür. “Ligeya”dakı geri dönüş məsələsini “Aşerlər evinin süqutu” hekayəsində də görürük. Ona görə də burada məsələnin kökü əslində elə Edqar Allan Ponun özünün dünyaya baxışında, mədəniyyətlərarası əlaqələrdə və onun platonik ideyalara münasibətindədir. Edqar allan Poya görə platonik ideyalar – yəni hər şeyin yüksəlişə doğru getməsi fikri yanlışdır. Çünki platonik ideyaların sonu tənəzzülə aparır və yüksəliş – yəni

assendas mütləq yerini dekadansa verməlidir. Hər şeyin məhv olması və yox olması kimi.

Hər iki hekayədə təbiət təsvirləri bütün qotik əsərlərdə olduğu kimi Edqar Allan Ponun əsərlərində də anti-mədəni dinamikanın formasıdır. Belə ki, təbiət hiyləgər bir cadugər kimi arxa planda verilmişdir və onun kimi arxa planda olan, tabuta canlı qoyulan Maqdalenlə ("Aşerlər evinin süqutu") paralellik təşkil edir. Deməli, Edqar Allan Ponun qadın obrazları da eynilə yunan faciələrindəki qadınlar kimi çox əhəmiyyətlidir və əsas alt mətn olmasının səbəbi yunan faciələrindəki bəşərilik mövzusu ilə də paralellik təşkil edir. Belə ki, qadın həm təbiəti təmsil edir, həm də qorxunc təbiəti təmsil edən o qadın nifrət edilən mədəniyyətin qiyaməti olur. Burada ambivalent bir əlaqə vardır (*Ambivalent* – bəlli bir obyekt və ya vəziyyətlə bağlı olaraq əks düşüncələrin bir arada müşahidə olunmasıdır). Edqar Allan Po mədəniyyəti psixoloji anlamda, məhv olma, tənəzzül ilə təsvir edir. Ligeyanın Rovennanın bədənində təcəllisi də həmin tənəzzüllə bağlıdır.

**Nəticə**

Edqar Allan Po yaşadığı qısa ömründə çoxşaxəli bir yaradıcılıq yolu keçmiş və yalnız ədəbiyyatda deyil, "Evrika" adlı möhtəşəm tarktatı ilə elm sahəsində də yenilik etmiş bir alim kimi adından söz etdirə bilmişdir.

Edqar Allan Ponun əsərlərində Qurana istər implisit, istərsə də eksplisit yanaşması onun xristianlıqda (xristianlıqdakı Üç uqnum – Tanrının insan obrazında təqdimi) tapa bilmədiyi Tanrı arayışıdır. Deməк ki, Edqar Allan Po hər şey dəyişir və heç nə əbədi deyil və ölümə məhkumdur deməklə bütün klassist görüşü darmadağın edir. Bu mənada da Edqar Allan Ponun modernizmi metaforik olaraq ierarxiyaları yıxan yeni qadın obrazı ilə qarşımıza çıxır. Edqar Allan Po bu qadın obrazı vasitəsilə də yıxılmış ierarxiyaların yerinə toplu çevrilmə mexanizmlərini qoyur. Edqar Allan Po mütləq dəyişimin olmasını müdafiə edən biridir.

Bu dəyişim mexanizmasını qadın obrazları ilə ifadə edən Edqar Allan Po onları metaforlaşdırır. O, "Yaradıcılıq fəlsəfəsi" (*The Philosphy of Composition*) əsərində yazır ki, "dünyanın ən poetik mövzusu gözəl bir qadının ölümüdür". Bu ifadəsilə Edqar Allan Po əslində qadının önündə baş əyir, 1500 il təbiəti təmsil etmək məcburiyyətində qalan qadının son mərhələdə də son sözü deyəcəyini bildirir. Edqar Allan Ponun bunu deməkdə məqsədi odur ki, qadının öldürülməsinə sərf edilən güc boşa sərf edilmiş deməkdir, çünki o, zamanı gəldiyində geri dönəcək (Aşerin bacısı kimi). Onu bərtərəf etmək mümkün deyil, amma siz onu müvəqqəti olaraq məhv etdikdə belə, hər bir halda sizin şəkliniz dəyişəcək və siz əvvəlki kimi olmayacaqsınız. Təbii ki, burda çox dəyişik bir qadın obrazı yaranır və Edqar Allan Ponun öz bioqrafiyasının da burada rolu vardır. Edqar Allan Po da, onun əsərlərini tərcümə edib Avropaya tanıdan Şarl Bodler də Edip kompleksi olan sənətkarlardır. Təbii ki, burada psixoanalitik baxımdan Edip kompleksi deyil, ədəbi anlamda Edip kompleksi nəzərdə tutulur. Çünki həm Edqar Allan Po, həm Şarl Bodler üçün ata anlayışı mövcud deyil. Belə ki, onlar atalarının oğulları deyil, analarının oğullarıdır. Ona görə də, onlarda ata anlayışı tam formalaşmadığından ana estetikasını yaradırlar. Ədəbiyyatşünas və pixoanalitik Yuliya Kristevanın açıqlamasına görə, Ponun patriarxal semiosferdə əsas estetikasını anlamaq üçün patriarxatdan imtina etməsi hər şeyin surətində özünü göstərir: insest, geylər, cəmiyyətin rədd etdikləri, səfillər və ən mühümü isə ölü obrazı. Çünki artıq ölü insan bir canlı adam deyil, obyektdir və canlandırdığı adamı xatırladır [14].

Edqar Allan Ponun müdafiə etdiyi hər şey dəyişməyə məhkumdur fikri əslində insanın dəyişimi ilə yanaşı yaşadığımız dünynın da dəyişimə uğrayaraq məhv olmasıdır. Bu baxımdan da onun üçün ən mühüm obraz ölü və qadın obrazıdır .

## ƏDƏBİYYAT SİYAHISI:

1. Qurani-Kərim, (Ərəb dilindən tərcümə edənlər: Z.M.Bünyadov və V.M.Məmmədəliyev)
2. Quliyev Q. Xüsusidən ümumiyə. "Elm və Təhsil", Bakı-2016. 317 s.
3. Cappi, Alberto (1994). "Edgar allan Poeəs Physical Cosmology". *Quarterly Journal*

*of the of Royal Astronomical Society*. 35: 177-192

4. Kennedy, J. Gerald. Poe, Death, and the Life of Writing. Yale University Press, 1987: 113
5. Meyers, Jeffrey. *Edgar Allan Allan Poe: His Life and Legacy*. New York: Cooper Square Press, 1992: 218
6. Poe, E. A. *Collected Works of Edgar Allan Poe, V.1: Poems;V.2 and 3: Tales and Sketches,* ed. Thomas Ollive Mabbott; with the assistance of Eleanor D. Kewer and Maureen C. Mabbott (Cambridge: The Belknap Press of Harvard University Press, 1969; 1978). Henceforth cited by volume and page number, i.e. 1:1.p. 118.
7. Poe, Edgar Allan Eureka: A Prose Poem
8. https://www.gutenberg.org/cache/epub/32037/pg32037-images.html
9. Robinson, Marilynne. "On Edgar Allan Poe", *The New York Review of Books*, vol. LXII, No. 2 (February 5, 2015), pp. 4, 6
10. Silverman, Kenneth. *Edgar A. Poe: Mournful and Never-ending Remembrance.* New York City: Harper Perennial, 1991: 339
11. Sova, Dawn B. *Edgar Allan Poe: A to Z. New York:* Checkmark Books, 2001: 82 ; Quinn, Arthur Hobson. Edgar Allan Poe: A Critical Biography. Baltimore: The John Hopkins University Press, 1998: 539]
12. Sova, Dawn B. *Edgar Allan Poe: A to Z. New York:* Checkmark Books, 2001: 82]
13. ["Physics Today Obituaries: Edward R. (Ted) Harrison", William M. Irvine, PhysicsToday.org, 2007-02-23, webpage:PToday-125 https://physicstoday.scitation.org/do/10.1063/PT.4.2379/full
14. Искендерова Н. Американская новелла и Восток. «Мутарджим», Баку, 2011. 250 с.
15. Кристева Ю. Силы ужаса: эссе об отвращении – СПб.: Алетейя, 2003. – 256 с.

**Nurana Majid NURİYEVA**
PhD in Philology, Associate Professor
Azerbaijan University of Languages,
Departament of Foreign Countries Literature

## THE AESTHETICS OF EDGAR ALLAN POE'S ORIENTALISM

### Summary

The article analyzes orientalism in creativity of Edgar Allan Poe, a prominent representative of American literature. Along with explaining the reasons and sources of the writer's appeal to the oriental theme, particularly in the works like "Eureka" and "Ligeia", the ideological- aesthetic scope and artistic- stylistic qualities are also investigated here. The study of Orientalism in the work of Edgar Allan Poe reveals the reasons for his interest in the East, which was mainly focused on the confrontation between East and West. In *Eureka*, Edgar Allan Poe was influenced by the Qur'an in terms of cosmology.

*Eureka* is a product of the writer's intuitive conception of human nature. Before Edgar Allan Poe, no one considered human nature from this point of view, and published scientific studies like *Eureka*. Edgar Allan Poe went through a multifaceted creative path, and with his magnificent treatise *Eureka* introduced an innovation not only in literature, but also in science.

There is a tendency towards Sufism in Edgar Allan Poe's short story *Ligeia*. . Through the female image, the writer replaces shaken hierarchies with mechanisms of collective transformation. Edgar Allan Poe expresses this mechanism of change with the help of female images, that is, he metaphorizes it.

**Key words:** East, Orientalism, "Eureka", E.A. Poe, "Ligeia"

**Нурана Меджид кызы НУРИЕВА**
к. филол. н., доцент кафедры литературы зарубежных стран,
Азербайджанского Универиситета Языков

## ЭСТЕТИКА ОРИЕНТАЛИЗМА ЭДГАРА АЛЛАНА ПО

**Резюме**

В статье анализируется ориентализм в творчестве видного представителя американской литературы Эдгара Аллана По. Наряду с объяснением причин и источников обращения писателя к восточной теме, в основном в его произведениях «Эврика» и «Лигейя», здесь также исследуются идейно-эстетический охват и художественно-стилистические качества.. Исследование ориентализма в творчестве Эдгара Аллана По выявляет причины его интереса к Востоку, который был сосредоточен в основном на противостоянии между Востоком и Западом. В работе «Эврика» Эдгар Аллан По находился под влиянием Корана с точки зрения космологии.

«Эврика» является продуктом интуитивного понимания писателем человеческой природы. До Эдгара Аллана По никто не рассматривал природу человека с этой точки зрения, и не публиковал научных исследований, подобных «Эврике». Эдгар Аллан По прошел многогранный творческий путь, и своим великолепным трактатом «Эврика» внес новшество не только в литературу, но и в науку.

В рассказе Эдгара Аллана По «Лигейя» присутствует тенденция к суфизму. Посредством женского образа писатель заменяет пошатнувшиеся иерархии механизмами коллективной трансформации. Эдгар Аллан По выражает этот механизм изменения с помощью женских образов, т. е. метафоризирует его.

**Ключевые слова:** Восток, ориентализм, «Эврика», Э. А. По, «Лигейя»

**Daxil olub:** 14.9.2022